müxtəlif təbəqələrinin təmsiliyyəti ilə tə-

təndaşlara və Azərbaycan Respublika-

sinə, insan hüquq və azadlıqlarının tə-

tədbirlərin davam etdirilməsi, bütün

üçün ən müasir məhkəmə binaları inşa

Cəbrayıl Rayon Məhkəməsinin hakimi.

“Azərbaycan multikultural dəyərləri ilə unikal bir ölkədir”

Hər bir insanın vətən sevgisi vətəndaşlıqdan başlayır. Məmməd Arazın: “Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı” misraları vətənin, əsl vətəndaşın böyüklüyünü, əzəmətini necə də gözəl ifadə edir.

Nəbi Yusifov Gəncəbasar bölgəsinin sayılıb-seçilən ziyalılarındandır. Yeni Azərbaycan Partiyasının Gəncə təşkilatının yaradıcılarından olan Nəbi müəllimi təkcə baş müəllimi olduğu Azərbaycan Dövlət Aqrar Universitetində deyil, həm də qədim Nizami yurdu Gəncədə hamı ulu öndər Heydər Əliyev ideyalarının ən fəal təbliğatçısı kimi tanıyır.

Xalqımızın şərəfli tarixində müstəsna yeri olan Heydər Əliyevin böyüklüyünü həm də yazdığı saysız-hesabsız monumental yazılarda, kitablarda əks etdirən Nəbi Yusifov bu bənzərsiz insana olan xalq məhəbbətinin sirrini açıqlayır.

“Dünyanın ən ideal tarixi şəxsiyyəti” adlandırdığı Heydər Əliyevin hər bir insana verdiyi dəyər ilə necə bəşəri bir insan olduğunu dönə-dönə vurğulayan Nəbi müəllim azərbaycançılıq ideyası müəllifinin uzaqgörənliyini, dahiliyini tutarlı faktlarla göstərir:

“Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideyası ilə nə qədər uzaqgörən siyasətçi olduğunun bu gün bir daha canlı şahidi oluruq. 2016-cı ilin ölkə Prezidenti İlham Əliyev tərəfindən “Multikulturalizm ili” elan edilməsi həm də Heydər Əliyev ideyalarının təntənəsidir.

Dilindən, dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə yaşayan bütün insanlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır.

Azərbaycan müxtəlif millətlərin bir vətəndə, bir bayraq altında xoşbəxt, bəxtiyar yaşadığı nadir ölkələrdəndir.

Dünyanı terrora, qarşıdurmalara, milli ayrı-seçkilik girdabına sürükləyənlərə multikultural dəyərləri ilə cavab verən bugünkü Azərbaycan məhz Heydər Əliyevin yadigarıdır”.

Nəbi müəllim Azərbaycan ziyalısının üzərinə bu gün daha böyük məsuliyyətin, missiyanın düşdüyünü qeyd edir. Gördüyü işlərlə, vətən sevgisiylə gənclərimizə nümunə olmağa çalışır və bütün bunları Heydər Əliyev ideallarına sədaqətlə, sevgiylə bağlayır.

Neçə illərdir ki, ölkəmizdə gedən quruculuq işlərini, Azərbaycan Prezidentinin apardığı siyasəti, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, ölkənin birinci xanımı Mehriban Əliyevanın mədəniyyətimizin, milli irsimizin dünyada təbliğ olunması yolunda gördüyü böyük işləri təqdir edən, bu haqda qəzet və jurnallarda yazılar dərc etdirən, təbrik və təşəkkür teleqramlarında, müraciət və məktublarda öz ehtiram və məhəbbətini bildirən Nəbi müəllim qürurla: “Var millətimin imzası bu imzalar içində”,—deyir.

Azərbaycan ordusunun son aylar döyüş bölgələrində qazandığı uğurlar bir çox vətənpərvər ziyalılar kimi Nəbi Yusifovun da qəlbini coşqu, qürur hissiylə doldurmuşdur.

“Son hadisələr göstərdi ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev bütün çətinliklərə baxmayaraq Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa nail olmuş, xalqımızın qəlbində, könlündə ümid çıracı yandırmışdır. Hər bir azərbaycanlının qəlbində şölələnən bu ümid çırağını yandırdığı üçün ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə sonsuz sevgilərimi, sayğılarımı bildirirəm”.

Əlbəttə, ölkə Prezidentinə ünvanlanan ümid dolu, ehtiram dolu hər məktub, teleqram onu vətənimiz naminə daha böyük işlər görməyə səfərbər edir. Xalq daima yanında olan Prezidentinə inandığından vətənpərvərlik, döyüş ruhu da yüksəkdir, hər an torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərə hazırdır.

“Biz Azərbaycanda demokratik, müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik”.

Ulu öndər Heydər Əliyevin bu fikirlərinin bu gün Prezident İlham Əliyev tərəfindən addım-addım həyata keçirildiyini qeyd edən Nəbi müəllim dövlətçiliyimizin təbliği yolunda ziyalı adının, ziyalı nüfuzunun bu gün daha böyük məna kəsb etdiyini bildirir:

Bayraqları bayraq yapan üstündəki qandır,

Torpaq əgər uğrunda ölən varsa vətəndir.

Qanlı köynəklərini bayraq edən hər bir şəhid övladlarımız vətənin, bayrağın, namus və qeyrətin hər şeydən ucada dayandığını dünyaya göstərdilər. Dünya əsl Azərbaycanı, əsl azərbaycanlını o 4-5 günlük döyüşlərdə gördü, tanıdı.

Gənclərimizin döyüş ruhu, milli vətənpərvərlik duyğuları çəkdiyimiz əziyyətin hədər getmədiyini göstərdi. Könüllü cəbhəyə getməyə, döyüşlərə atılmağa hazır olan minlərlə gənclərimiz, hər evin eyvanlarında dalğalanan üçrəngli ayulduzlu bayrağımız “vətən gözdür, biz kirpik, gözümüzün keşiyini çəkirik” sözlərinin müqəddəsliyini bir daha təsdiq etmiş oldu”.

Nəbi müəllimin bu sözlərində böyük həqiqət var. Görünür, qınında paslanan qılıncın sıyrılmasına ehtiyac varmış. Üstəlik o qılınc haqqın təntənəsi yolunda sıyrılırsa...

Milli dəyərlərimizə, zəngin ədəbiyyatımıza dərindən bələdlik Nəbi müəllimin yazdığı bütün yazılarda boy göstərir. Analitik düşüncə tərzi ilə seçilən yazılarında Nəbi müəllim “öncə vətəndir” prinsipini həmişə əsas tutur. Bu, əsl ziyalı mövqeyidir.

Onun istər “Dünyanın ən ideal tarixi şəxsiyyəti”, istərsə də “Yeni əsrin yeni lideri” kitablarında toplanmış müxtəlif səpgili yazılarda, siyasi oçerklərdə Heydər Əliyevin və İlham Əliyevin Azərbaycanın xilası uğrunda həyata keçirdikləri şərəfli missiya hərtərəfli şəkildə təhlil olunur.

İstər Azərbaycan Dövlət Aqrar Universitetində, istərsə də Gəncədə keçirilən bir çox tədbirlərdə yaxından iştirak edən, öz dəyərli məsləhətlərini verən Nəbi Yusifov ziyalı mövqeyinin vacibliyini xüsusi vurğulayır: “Azərbaycanın uğurlarından bərk qorxuya düşmüş ermənilər Moskvada oturmuş himayədarlarının köməyi ilə müxtəlif televiziya kanallarında, internet saytlarında Azərbaycanın əleyhinə dezinformasiya xarakterli təbliğatı gücləndirmişlər. Bu yaxınlarda bir erməni generalının fəxrlə monoetnik Ermənistan yaratdıqlarını və bunun əllərində ən güclü silah olduğunu, çoxmilləti Azərbaycanın isə tezliklə parçalanacağını bildirən çıxışına baxdım. Erməni generalının bu çıxışını təşkil edənlər yüz illər boyu burada yaşayan, Azərbaycanı doğma vətəni bilən, onun uğrunda canından keçməyə hazır olan insanların vətən sevgisindən yaxşı xəbərdardırlar.

Azərbaycan bu gün tolerantlıq nümunəsi, multikultural dəyərlərə ən yüksək qiymət verən nadir ölkədir. Bu misilsiz sərvəti dünyaya təqdim edənsə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevdir. Bizim xalqın böyüklüyünü nə erməni təbliğatı, nə də onun arxasında dayananların xəyanətkar planları qaralaya, poza bilməz.

Bu gün hər bir Azərbaycan ziyalısının, Azərbaycan vətəndaşının üzərinə böyük məsuliyyət düşür. Ölkə Prezidentinin gördüyü əzəmətli işləri təbliğ etmək, gənc nəsli vətən sevgisi, vətən müqəddəsliyi ruhunda tərbiyə etmək...”

Nəbi müəllimin bu fikirləri məncə, Azərbaycanı sevən hər bir kəsin ürəyinin səsidir. O səs bizi doğma Şuşamıza, Ağdamımıza, Laçınımıza, Füzulimizə, Cəbrayılımıza, Qubadlımıza, Kəlbəcərimizə, Zəngilanımıza, Xankəndimizə aparacaq.

Zülfüqar ŞAHSEVƏNLİ,
“Respublika”.